# 2 Yəhya

[1]Mən ağsaqqaldan həqiqətə görə sevdiyim seçilmiş xanıma və onun övladlarına salam!
Yalnız mən deyil, həqiqəti dərk edənlərin hamısı sizi sevir. [2]Çünki həqiqət daxilimizdə
qalır və əbədi olaraq bizimlə olacaq. [3]Ata Allahdan və Atanın Oğlu İsa Məsihdən olan
lütf, mərhəmət, sülh də həqiqət və məhəbbət əsasında bizimlə olacaq.

### Məhəbbət və həqiqət

[4]Sənin övladlarının arasında Atadan aldığımız əmrə uyğun olaraq həqiqətə görə həyat
sürənlərə rast gələndə çox sevindim. [5]Ey xanım, indi də səndən xahiş edirəm ki, bir-
birimizi sevək. Sənə yazdığım yeni bir əmr deyil, əvvəldən bəri malik olduğumuz əmrdir.
[6]Məhəbbət Atanın əmrlərinə görə həyat sürməyimizi tələb edir. Əvvəldən bəri eşitdiyiniz
kimi əmr budur; gərək bu əmrə görə həyat sürəsiniz. [7]Çünki dünyada çoxlu yalançı
meydana çıxıb ki, İsa Məsihin cismən gəldiyini iqrar etmir. Bunu edən şəxs yalançı və
Məsih əleyhdarıdır. [8]Özünüzü qoruyun ki, bizim çəkdiyimiz zəhməti bada verməyib tam
mükafatı əldə edəsiniz. [9]Həddi aşıb Məsihin təliminə sadiq qalmayan hər kəs Allaha
malik deyil, həmin təlimə sadiq qalan kəs isə həm Ataya, həm də Oğula malikdir. [10]Əgər
bir kəs yanınıza gəlib sizə bu təlimi öyrətməsə, onu qonaq qəbul etməyin və onunla
salamlaşmayın. [11]Çünki onunla salamlaşan kəs onun şər əməllərinə şərik olur.

### Xudahafizləşmə

[12]Sizə yazılası çox sözüm var, amma bunları kağız və mürəkkəblə bildirmək istəmədim.
Lakin ümid edirəm ki, özüm yanınıza gəlib sizinlə üz-üzə söhbət edim və beləcə
sevincimiz tamam olsun. [13]Sənin seçilmiş bacının övladları sənə salam göndərir.